Təsdiq edirəm
ADMİU-nun rektoru
_________Professor Ceyran Mahmudova
"_12_" "_sentyabr_________" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003009 – İnstrumental ifaçılıq ixtisasının**
**İnstrumental ifaçılıq (klassik musiqi alətləri ifaçılığı) ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003009 – İnstrumental ifaçılıq ixtisası (klassik musiqi alətləri ifaçılığı) üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək; müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.
- musiqi yönümlü layihələrin təşkili və idarə olunmasında konsert menecmenti prinsiplərindən istifadə etmək;
- müxtəlif dövrlərə və üslublara aid musiqi əsərlərini texniki və bədii cəhətdən yüksək səviyyədə ifa etmək;
- solo, kamera və orkestr ifaçılığında iştirak etmək;
- musiqi üslublarını və ifa texnikalarını təhlil və müqayisə edə bilmək;
- Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri bazaya malik olmaq;
- ifaçılıqda yaradıcılıq və improvizasiya etmək (xüsusilə müasir musiqi və ansambl ifalarında);
- kamera və ansambl ifalarında harmonik uyğunlaşma, intonativ dəqiqlik və "musical interaction" bacarığından istifadə etmək;
- ifaçılıq təcrübəsi və nəzəri biliklərə əsaslanaraq ixtisas yönümlü repertuarı hazırlamaq və proqramı fərdi tərtib etmək;
- musiqi obrazlarını konseptual şəkildə formalaşdırmaq;
- səhnədə fərdi yaradıcılığını nümayiş etdirmək;
- ifa etdikləri əsərlər haqqında geniş məlumatlara və biliklərə malik olmaq;
- ifaçılıq xüsusiyyətlərini düzgün tətbiq etmək, kompozisiya, forma, həmçinin harmonik, melodik və digər xüsusiyyətləri təhlil etmək;
- konsertmeyster kimi müxtəlif alətləri, həmçinin vokal ifaçılarını müşayiət etmək, ifaçılıq bacarıqlarını tətbiq etmək;
- interpretasiya zamanı partnyor ifaçılarla bədii sinxronluq və qarşılıqlı çeviklik nümayiş etdirmək;
- müasir ifaçılıq və təlim metodlarından, rəqəmsal texnologiyalardan yaradıcılıqla istifadə edə bilmək;
- müasir musiqi texnologiyalarını seçmək və tətbiq etmək.

***Qeyd:*** *ixtisasın xüsusiyyətindən asılı olaraq ümumi səriştələrə əlavələr edilə bilər.*

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***İnstrumental ifaçılıq (klassik musiqi alətləri ifaçılığı) ixtisaslaşması üzrə:***

***Fortepiano üzrə:***

- instrumental və vokal ifaçılarla ansamblda işləyərək müxtəlif üslublarda texniki və musiqi ifadə vasitələrini uyğun şəkildə tətbiq etmək;
- kamera musiqisi ansambllarında liderlik və uyğunlaşma bacarıqları ilə kollektiv ifada fəal iştirak edərək, ifa strategiyaları qurmaq;
- musiqi əsərlərinin ifaçılıq təhlilini — applikatura, dinamika, frazirovka, pedalizasiya və digər texniki-praktik üsulları yüksək səviyyədə şərh edəcək və redaktə zamanı məqsədyönlü şəkildə tətbiq edə bilmək;

- nəzəri biliklərini ifa prosesinə tətbiq edərək musiqi ibarələrinin, onların temp və dinamikasının ifadəli səslənməsinə nail olmaq;
- ansambl üzvləri arasında intonasiya, aqogika və musiqi ibarələrinin uyğunluğunu təmin edərək ifaçılıq iterpretasiyasının nəzəri təhlil nəticələrini bədii şəkildə tətbiq edə bilmək;
- əsərlərin struktur və texniki təhlilini apararaq, fərdi və təkrar redaktə, yüksək estetik səviyyədə ifa etmək.

***Simli alətlər üzrə:***

- müxtəlif formatlı (duet, trio, kvartet və s.) kamera ansambl kollektivlərində stilistik uyğunluq, musiqi dialoqu və ansambl dinamikasının qurulması üzrə peşəkar bacarıqlara malik olmaq;
- kollektiv musiqi təfəkkürünə əsaslanaraq musiqi ideyasının paylaşılmış şəkildə ifadəsinə nail olmaq;
- simfonik və kamera orkestrləri tərkiblərində simli alət ifaçısı kimi kollektiv musiqi proseslərinə texniki və interpretativ səviyyədə yüksək inteqrasiya nümayiş etdirmək;
- musiqi dialoqunun qurulmasında təşəbbüskar olmaq;
- həm solo, həm də müşayiətçi qismində bədii məqsədləri aydın şəkildə çatdırmaq;
- simli alətlər ifaçısı kimi konsertmeyster-illüstrator funksiyasını həyata keçirərək orkestr daxilində estetik rəhbərlik, intonasiya koordinasiyası və interpretativ təşəbbüs bacarıqlarını nümayiş etdirmək;
- dirijorun göstərişlərini bədii şəkildə gerçək ifaya yönləndirərək orkestrin ritmik strukturunu, dinamik gərginliyini və bədii intonasiyasını yarada bilmək.
- konsertmeyster kimi orkestr daxilində texniki və psixoloji sabitlik mühitini qorumaq;
- ifa zamanı partnyorlar arasında koordinasiya və səhnə davranışı baxımından nümunəvi liderlik funksiyasını icra etmək.

***Nəfəs və zərb alətləri üzrə:***

- müxtəlif formatlı (duet, trio, kvartet və s.) kamera ansambl kollektivlərində stilistik uyğunluq, musiqi dialoqu və ansambl dinamikasının qurulması üzrə peşəkar bacarıqlara malik olmaq;
- kollektiv musiqi təfəkkürünə əsaslanaraq musiqi ideyasının paylaşılmış şəkildə ifadəsinə nail olmaq;
- simfonik və nəfəs orkestrləri tərkiblərində nəfəs və zərb alətləri ifaçısı kimi kollektiv musiqi proseslərinə texniki və interpretativ səviyyədə yüksək inteqrasiya nümayiş etdirmək;
- musiqi dialoqunun qurulmasında təşəbbüskar olmaq,
- həm solo, həm də müşayiətçi qismində bədii məqsədləri aydın şəkildə çatdırmaq;
- nəfəs və zərb alətləri üzrə solo ifa sahəsində texniki virtuozluğu, musiqi intonasiyasını və ifaçı interpretasiyasını birləşdirərək yüksək səviyyəli peşəkarlığa malik olmaq;
- klassik və müasir repertuarın mürəkkəb nümunələrini bədii, üslubi və dramaturji baxımdan əsaslandırılmış konseptual yanaşma ilə təqdim etmək;
- solo ifa zamanı musiqi frazalarının ifadəli modelləşdirilməsi, ifa dinamikasının tənzimlənməsi, nəfəs və artikulyasiya texnikalarından yaradıcı istifadə etmək;
- psixoloji baxımdan auditoriya ilə əlaqəni formalaşdırmaq;
- partitura təfəkkürünə əsaslanaraq öz ifa partiyasının struktur və funksional mahiyyətini qavramaq;
- musiqi dramaturgiyasının inkişafına adekvat reaksiyalar verərək orkestr səslənməsinin bütövlüyünü təmin etmək;

- stilistik çeviklik, musiqi jestikası, eşitmə-müşahidə refleksi və çeviklik göstərərək ansambl kontekstində yaradıcı qarşılıqlı münasibət qurmaq.

### 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| İnstrumental ifaçılıq (klassik musiqi alətləri ifaçılığı) | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

**Fortepiano aləti üzrə**

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| 3 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər:** | 54 |

| | | |
|---|---|---|
| | ***İnstrumental ifaçılığın müasir istiqamətləri (musiqi alətləri üzrə)***<br><br>*"İnstrumental ifaçılığın müasir istiqamətləri (musiqi alətləri üzrə)" fənninin əsas məqsədi müasir musiqi ifaçılığının nəzəri və praktik əsasları barədə dərin bilik formalaşdırmaq, ifaçılıq məktəblərinin müasir inkişaf istiqamətlərini öyrətmək və fərdi ifaçılıq bacarıqlarını müasir tələblər əsasında inkişaf etdirməkdir. Fənn çərçivəsində müasir instrumental ifaçılığın nəzəri-metodoloji əsasları, ifaçılıq məktəblərinin müasir inkişafı, yeni üslub və texnikaları, interpretasiya problemləri, elektron və rəqəmsal texnologiyaların ifaçılıqda rolu, həmçinin Azərbaycan və dünya musiqisində çağdaş ifaçılıq təcrübələri öyrədilir.* | 6 |
| 4 | ***Yaradıcı düşüncə və fəaliyyət***<br><br>*"Yaradıcı düşüncə və fəaliyyət" fənni musiqi sahəsində nəzəri biliklərin praktik fəaliyyətlə birləşdirərək müstəqil yaradıcılıq bacarığı formalaşdırılmasını hədəfləyir. Fənn musiqi düşüncəsini inkişaf etdirmək, kompozisiya, improvizasiya, nəzəri praktiki yenilikləri mənimsəmək, yaradıcılıq fəaliyyətini formalaşdırmaq, ifaçılıq bacarıqlarını nümayiş etdirmək, yekun layihə və ya ifa proqramı şəklində təqdim etdirməkdir. Fənn semestrlər üzrə mərhələli şəkildə təşkil olunur: mövzunun seçilməsi və təsdiqi, nəzəri metodik baza üzərində işlənməsi, yaradıcı məhsulun hazırlanması, nəticələrin sistemləşdirilməsi və təqdimata hazırlanması. İfaçı öz yaradıcılıq işini eyni əsaslarla təqdim və müdafiə edir.* | 6 |
| 5 | ***Yaradıcı inkişaf***<br><br>*Bu fənn ifaçının yalnız texniki bacarıqlarını deyil, fərdi yaradıcılıq düşüncəsini, emosional ifadəliliyini və səhnə fərdiliyini formalaşdırır. Klassik musiqi alətlərində ifa edən musiqiçi üçün fənn peşəkar səviyyədə yaradıcı təfəkkürün inkişafını təmin edən əsas dayaqlardan biridir. İfaçı fərdi yaradıcılıq üslubuna malik, innovativ düşüncəli, səhnədə azad və inandırıcı çıxış edən mütəxəssis kimi formalaşır.* | 6 |
| 6 | ***Yaradıcılıq işi***<br><br>*"Yaradıcılıq işi" fənni ifaçının musiqi təfəkkürünü, bədii-emosional ifadəliliyini və sənətkar şəxsiyyətini inkişaf etdirməyə yönəlmişdir. Bu fənn ifaçının yalnız texniki ustalığı deyil, həm də musiqi materialına yaradıcı yanaşmasını sistemli şəkildə formalaşdırır. Fənn ifaçını icraçıdan bədii yaradıcılıq qabiliyyətinə malik, musiqi ideyası formalaşdırmağı bacaran professional ifaçıya çevirir. Fənn ifaçının fərqlənən bədii kimlik qazanmasına, səhnədə təsir gücünün artmasına, öz üslubu ilə yadda qalmasına şərait yaradır.* | 6 |
| 7 | ***Müşayiət sənəti***<br>*"Müşayiət sənəti" fənninin başlıca məqsədi ifaçıların musiqi dünyasında bir-biri ilə ahəngdar şəkildə səsləşən kiçik kollektivlərdə peşəkar ifaçılıq vərdişlərini formalaşdırmaq, onların musiqini yalnız fərdi deyil, həm də birgə yaratma bacarığını inkişaf etdirməkdir. Bu fənn bir ifaçını yalnız müşayiət edən deyil, bədii prosesin aparıcı mərkəzi olan konsertmeyster səviyyəsinə yüksəldir və gənc musiqiçilərə səhnədə qarşılıqlı anlaşma, bir-birini* | 6 |

| | | |
|---|---|---|
| | *dinləmə və hiss etmə mədəniyyətini aşılayaraq, ansamblın tam bədii birlik kimi səslənməsinə zəmin yaradır.* | |
| 8 | ***Piano müşayiəti ustalığı***<br><br>*"Piano müşayiəti ustalığı" fənni ifaçının solistlərə, vokal kollektivləri ilə peşəkar səviyyədə əməkdaşlıq bacarığını inkişaf etdirməyə yönəlmişdir. Fənn piano müşayiətçisinin yalnız texniki bacarığını deyil, həm də bədii düşüncəsini, səhnə mədəniyyətini və improvizasiya qabiliyyətini formalaşdırır. Bu fənn bir ifaçını yalnız müşayiətçi edən ifaçı deyil, bədii prosesi idarə edən və solistlə musiqi dialoqu yaradan professional konsertmeyster səviyyəsinə gətirir.* | 6 |
| 9 | ***Kamera musiqi ifaçılığı***<br><br>*"Kamera musiqi ifaçılığı" fənninin əsas məqsədi ifaçılarda kiçik musiqi kollektivlərində peşəkar ifa bacarıqlarını inkişaf etdirmək, musiqi əsərlərinin ansambl kontekstində düzgün ifasını təmin etmək və fərdi ifaçılıq bacarıqlarını kollektiv harmoniyada tətbiq etməkdir. Kamera ansamblında yüksək səviyyədə ifa bacarığı nümayiş etdirir, fərdi ifaçılıq bacarıqlarını kollektiv ifada uğurla tətbiq edir, ansambl repertuarının müxtəlif dövrlər və üslublar üzrə ifa xüsusiyyətlərini bilir.* | 6 |
| 10 | ***Kamera ansambl ifaçılığı***<br><br>*"Kamera ansambl ifaçılığı" fənni ifaçıları kiçik ansambl strukturlarında (duet, trio, kvartet və s.) yüksək səviyyədə ifaçılıq bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Fənn ansambl üzvlərinin vahid bədii ifadə və səslənmə yaratmaq üçün qarşılıqlı anlaşma, frazirovka və ritmik uyğunlaşma bacarıqlarını təkmilləşdirir. Bu fənn ifaçını vahid, harmonik və yaradıcı ansambl ifaçısı səviyyəsinə yüksəldir.* | 6 |
| 11 | ***Ali məktəb pedaqogikası və psixologiya***<br><br>*"Ali məktəb pedaqogikası və psixologiya" fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər:** | 18 |
| 12 | **a) İxtisas üzrə ifaçılıq**<br>*"İxtisas üzrə ifaçılıq" fənninin əsas məqsədi ifaçılarda ixtisas üzrə peşəkar ifaçılıq, dərin nəzəri bilik və elmi-tədqiqat yanaşmasını formalaşdırmaq, onların yaradıcı düşüncə qabiliyyətini inkişaf etdirməkdir. "İxtisas üzrə ifaçılıq" fənninin əsas məqsədi ifaçılara peşəkar fəaliyyətin elmi və praktik aspektlərini mənimsətməklə onların gələcək müstəqil yaradıcılıq, tədqiqat və tətbiqi işlər aparmaq qabiliyyətlərini inkişaf etdirir.* | 6 |

| | | |
|---|---|---|
| | **b) Alət üzrə solo ifa**<br>*Fənnin əsas məqsədi ifaçılarda yüksək səviyyəli ifaçılıq mədəniyyəti formalaşdırmaq, fərdi texniki və bədii bacarıqları təkmilləşdirmək, onların yaradıcılıq potensialını üzə çıxarmaq və müasir ifaçılıq tələblərinə uyğun peşəkar ifa səviyyəsinə çatdırmaqdır.* | |
| 13 | **a)Alət üzrə ifaçılıq**<br>*"Alət üzrə ifaçılıq" fənni ifaçıların bədii ifadə, texniki dəqiqlik və interpretasiya bacarıqlarını peşəkar səviyyədə inkişaf etdirməsini təmin edir. Fənn ifaçıya musiqi düşüncəsi, səhnə etikasına uyğun davranış və fərdi ifaçı üslubunun formalaşması üçün zəruri bilik və təcrübələri verir.*<br>**b) İxtisas hazırlığı**<br>*"İxtisas hazırlığı" fənni ifaçının repertuarı mənimsəməsi, fərdi üslubunun formalaşması və səhnə performansının təkmilləşməsi üçün əsas baza yaradır. Bu fənn ifaçını yaradıcı, müstəqil və professional musiqiçi səviyyəsinə hazırlayır.* | 6 |
| 14 | **a) İxtisas alətində ifa**<br>*"İxtisas alətində ifa" fənni ifaçıların seçilmiş klassik musiqi alətində (fortepiano, simli, nəfəsli, zərb alətləri) peşəkar ifa bacarıqlarını, texniki ustalığı, bədii ifadə qabiliyyətini inkişaf etdirməyə yönəlmişdir.*<br>**b) *Fərdi alətdə ifa***<br>*"Fərdi alətdə ifa" fənni ifaçını yalnız texniki səviyyədə deyil, yaradıcı, müstəqil və professional musiqiçi kimi inkişaf etdirir. Bu fənn konsert fəaliyyəti, pedaqoji fəaliyyət və s. yönümlü musiqi işində yüksək tələb olunan peşəkar bacarıqları təmin edir.* | 6 |
| | **Təcrübə** | |
| 15 | **Elmi-pedaqoji təcrübə**<br>*"Elmi pedaqoji təcrübə"-nin əsas məqsədi ali təhsil mühitində pedaqoji fəaliyyətin elmi əsaslarını praktik olaraq tətbiq etmək və tədris prosesində nəzəri bilikləri praktik bacarıqlara çevirməkdir. Elmi-tədqiqat yanaşmanı pedaqoji fəaliyyətlə inteqrasiya etməyi, tədris prosesində analitik və yaradıcı bacarıqları inkişaf etdirməyi hədəfləyir. Ali məktəb mühitində pedaqoji fəaliyyətini elmi əsaslarla planlaya və həyata keçirir, tədris prosesində müşahidə, təhlil və qiymətləndirmə bacarığına malik olur, pedaqoji fəaliyyətlə bağlı hesabat və layihələri hazırlaya bilir.* | 6 |
| **CƏMİ** | | **90** |

## Digər alətlər

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| 3 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər:** | 54 |
| | **İnstrumental ifaçılığın müasir istiqamətləri (musiqi alətləri üzrə)**<br>*"İnstrumental ifaçılığın müasir istiqamətləri (musiqi alətləri üzrə)" fənninin əsas məqsədi müasir musiqi ifaçılığının nəzəri və praktik əsasları barədə dərin bilik formalaşdırmaq, ifaçılıq məktəblərinin müasir inkişaf istiqamətlərini öyrətmək və fərdi ifaçılıq bacarıqlarını müasir tələblər əsasında inkişaf etdirməkdir. Fənn çərçivəsində müasir instrumental ifaçılığın nəzəri-metodoloji əsasları, ifaçılıq məktəblərinin müasir inkişafı, yeni üslub və texnikaları, interpretasiya problemləri, elektron və rəqəmsal texnologiyaların ifaçılıqda rolu, həmçinin Azərbaycan və dünya musiqisində çağdaş ifaçılıq təcrübələri öyrədilir.* | 6 |
| 4 | **Yaradıcı düşüncə və fəaliyyət**<br>*"Yaradıcı düşüncə və fəaliyyət" fənni ifaçıların musiqi sahəsində nəzəri biliklərini praktik fəaliyyətlə birləşdirərək müstəqil yaradıcılıq bacarığı formalaşdırılmasını hədəfləyir. Fənn ifaçının musiqi düşüncəsini inkişaf etdirmək, kompozisiya, improvizasiya, nəzəri praktiki yenilikləri mənimsəmək, yaradıcılıq fəaliyyətini formalaşdırmaq, ifaçılıq bacarıqlarını nümayiş etdirmək, yekun layihə və ya ifa proqramı şəklində təqdim etdirməkdir. Fənn semestrlər üzrə mərhələli şəkildə təşkil olunur: mövzunun seçilməsi və təsdiqi, nəzəri metodik baza üzərində işlənməsi, yaradıcı məhsulun hazırlanması, nəticələrin sistemləşdirilməsi və* | 6 |

| | | |
|---|---|---|
| | təqdimata hazırlanması. İfaçı öz yaradıcılıq işini eyni əsaslarla təqdim və müdafiə edir. | |
| 5 | ***Yaradıcı inkişaf***<br><br>*"Yaradıcı inkişaf" fənni ifaçının yalnız texniki bacarıqlarını deyil, fərdi yaradıcılıq düşüncəsini, emosional ifadəliliyini və səhnə fərdiliyini formalaşdırır. Klassik musiqi alətlərində ifa edən musiqiçi üçün fənn peşəkar səviyyədə yaradıcı təfəkkürün inkişafını təmin edən əsas dayaqlardan biridir. İfaçı fərdi yaradıcılıq üslubuna malik, innovativ düşüncəli, səhnədə azad və inandırıcı çıxış edən mütəxəssis kimi formalaşır.* | 6 |
| 6 | ***Yaradıcılıq işi***<br><br>*"Yaradıcılıq işi" fənni ifaçıların musiqi təfəkkürünü, bədii-emosional ifadəliliyini və sənətkar şəxsiyyətini inkişaf etdirməyə yönəlmişdir. Bu fənn ifaçının yalnız texniki ustalığı deyil, həm də musiqi materialına yaradıcı yanaşmasını sistemli şəkildə formalaşdırır. Fənn ifaçını icraçıdan bədii yaradıcılıq qabiliyyətinə malik, musiqi ideyası formalaşdırmağı bacaran professional ifaçıya çevirir. Fənn ifaçının fərqlənən bədii kimlik qazanmasına, səhnədə təsir gücünün artmasına, öz üslubu ilə yadda qalmasına şərait yaradır.* | 6 |
| 7 | ***Orkestr ifaçılığı***<br><br>*"Orkestr ifaçılığı" fənninin əsas məqsədi peşəkar kollektiv ifaçılıq bacarıqlarını formalaşdırmaq, orkestr ifaçılığının nəzəri və praktiki əsaslarını öyrətmək, həmçinin ansambl mədəniyyəti, birlikdə kollektiv ilə bəstəkar əsərlərini interpretasiya bacarıqlarını inkişaf etdirməkdir. Hər bir orkestr üzvü öz partiyasını yüksək dəqiqliklə mənimsəməli, fərdi və qrup məşğələləri zamanı texniki və bədii ustalığını inkişaf etdirməlidir. Bu fənn müxtəlif dövrlərə yazılan əsərlərin ifası, onlara xas olan üslub xüsusiyyətlərinin mənimsənilməsi və kollektiv ilə dirijorla qarşılıqlı fəaliyyət çərçivəsində interpretasiya və peşakarlığın nümayiş etdirilməsini təmin edir.* | 6 |
| 8 | ***Orkestr məşğələləri***<br><br>*Bu fənn müxtəlif dövrlərdə yazılan əsərlərin ifası, onlara xas olan üslub xüsusiyyətlərinin mənimsənilməsi və kollektivin dirijorla qarşılıqlı fəaliyyət çərçivəsində interpretasiya və peşakarlığın nümayiş etdirilməsini təmin edir.* | 6 |
| 9 | ***Kamera musiqi ifaçılığı***<br><br>*"Kamera musiqi ifaçılığı" fənninin əsas məqsədi ifaçılarda kiçik musiqi kollektivlərində peşəkar ifa bacarıqlarını inkişaf etdirmək, musiqi əsərlərinin ansambl kontekstində düzgün ifasını təmin etmək və fərdi ifaçılıq bacarıqlarını kollektiv harmoniyada tətbiq etməkdir. Kamera ansamblında yüksək səviyyədə ifa bacarığı nümayiş etdirir, fərdi ifaçılıq bacarıqlarını* | 6 |

| | | |
|---|---|---|
| | *kollektiv ifada uğurla tətbiq edir, ansambl repertuarının müxtəlif dövrlər və üslublar üzrə ifa xüsusiyyətlərini bilir.* | |
| 10 | ***Kamera ansambl ifaçılığı***<br><br>*"Kamera ansambl ifaçılığı" fənni ifaçıları kiçik ansambl strukturlarında (duet, trio, kvartet və s.) yüksək səviyyədə ifaçılıq bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Fənn ansambl üzvlərinin vahid bədii ifadə və səslənmə yaratmaq üçün qarşılıqlı anlaşma, frazirovka və ritmik uyğunlaşma bacarıqlarını təkmilləşdirir. Bu fənn ifaçını vahid, harmonik və yaradıcı ansambl ifaçısı səviyyəsinə yüksəldir.* | 6 |
| 11 | ***Ali məktəb pedaqogikası və psixologiya***<br><br>*"Ali məktəb pedaqogikası və psixologiya" fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər:** | 18 |
| 12 | **a) *İxtisas üzrə ifaçılıq***<br>*"İxtisas üzrə ifaçılıq" fənninin əsas məqsədi ifaçılarda ixtisas üzrə peşəkar ifaçılıq, dərin nəzəri bilik və elmi-tədqiqat yanaşmasını formalaşdırmaq, onların yaradıcı düşüncə qabiliyyətini inkişaf etdirməkdir. "İxtisas üzrə ifaçılıq" fənninin əsas məqsədi ifaçılara peşəkar fəaliyyətin elmi və praktik aspektlərini mənimsətməklə onların gələcək müstəqil yaradıcılıq, tədqiqat və tətbiqi işlər aparmaq qabiliyyətlərini inkişaf etdirir.*<br><br>**b) *Alət üzrə solo ifa***<br>*Fənnin əsas məqsədi ifaçılarda yüksək səviyyəli ifaçılıq mədəniyyəti formalaşdırmaq, fərdi texniki və bədii bacarıqları təkmilləşdirmək, onların yaradıcılıq potensialını üzə çıxarmaq və müasir ifaçılıq tələblərinə uyğun peşəkar ifa səviyyəsinə çatdırmaqdır.* | 6 |
| 13 | **a) *Alət üzrə ifaçılıq***<br>*"Alət üzrə ifaçılıq" fənni ifaçının bədii ifadə, texniki dəqiqlik və interpretasiya bacarıqlarını peşəkar səviyyədə inkişaf etdirməsini təmin edir. Fənn ifaçıya musiqi düşüncəsi, səhnə etikasına uyğun davranış və fərdi ifaçı üslubunun formalaşması üçün zəruri bilik və təcrübələri verir.*<br><br>**b) *İxtisas hazırlığı***<br>*"İxtisas hazırlığı" fənni ifaçının repertuarı mənimsəməsi, fərdi üslubunun formalaşması və səhnə performansının təkmilləşməsi üçün əsas baza yaradır. Bu fənn ifaçını yaradıcı, müstəqil və professional musiqiçi səviyyəsinə hazırlayır.* | 6 |

| | | |
|---|---|---|
| 14 | **a) *İxtisas alətində ifa***<br>*"İxtisas alətində ifa" fənni ifaçıların seçilmiş klassik musiqi alətində (simli, nəfəsli, zərb alətləri) peşəkar ifa bacarıqlarını, texniki ustalığı, bədii ifadə qabiliyyətini inkişaf etdirməyə yönəlmişdir.*<br><br>**b) *Fərdi alətdə ifa***<br>*"Fərdi alətdə ifa" fənni ifaçını yalnız texniki səviyyədə deyil, yaradıcı, müstəqil və professional musiqiçi kimi inkişaf etdirir. Bu fənn konsert fəaliyyəti, pedaqoji fəaliyyət və s. yönümlü musiqi işində yüksək tələb olunan peşəkar bacarıqları təmin edir.* | 6 |
| | **Təcrübə** | |
| 15 | **Elmi-pedaqoji təcrübə**<br>*"Elmi pedaqoji təcrübə"-nin əsas məqsədi ali təhsil mühitində pedaqoji fəaliyyətin elmi əsaslarını praktik olaraq tətbiq etmək və tədris prosesində nəzəri bilikləri praktik bacarıqlara çevirməkdir. Fənn tələbələrə elmi-tədqiqat yanaşmasını pedaqoji fəaliyyətlə inteqrasiya etməyi, tədris prosesində analitik və yaradıcı bacarıqlarını inkişaf etdirməyi hədəfləyir. Ali məktəb mühitində pedaqoji fəaliyyətini elmi əsaslarla planlaya və həyata keçirir, tədris prosesində müşahidə, təhlil və qiymətləndirmə bacarığına malik olur, pedaqoji fəaliyyətlə bağlı hesabat və layihələri hazırlaya bilir.* | 6 |
| **CƏMİ** | | **90** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***İnstrumental ifaçılıq (klassik musiqi alətləri ifaçılığı):***

- İxtisas və ansambl məşqləri üçün sahə üzrə müxtəlif alətlər (fortepiano, royal, violin, viola, cello, kontrabas, taxta, mis, zərb, böyük və kiçik orqan, klavesin və s., o cümlədən xalq çalğı alətləri) ilə təchiz edilmiş sinif otaqları;
- Akustik baxımdan (səsin dağılımı, əks-səda və s.) təkmilləşdirilmiş konsert salonu və kamera musiqisi zalı, təlim və tədris otaqları;
- Not kitabxanası (alətlər üzrə);
- Audiovizual texnologiyalarla təchiz olunmuş multimedia avadanlıqları (ifa analizləri, tədris təqdimatları və s. üçün);
- Musiqi texnologiyaları laboratoriyası (ifa yazıları, redaktə və interpretasiya araşdırmaları üçün müvafiq proqram təminatı ilə təchiz olunmuş);
- Fortepiano aləti üzrə ixtisas və ansambl məşqləri üçün ikili royalla ( (duet) təchiz edilmiş sinif otaqları.
- Hər alətin saxlanılması üçün uyğun otaqlar;
- Alətlərin təmiri və baxımı üçün xüsusi otaq;
- Səs izolyasiyası ilə təmin edilmiş səhnə və tədris otaqları;
- Məşqlər üçün yaxşı işıqlandırılmış və havalandırılmış xüsusi otaqlar.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. İnstrumental ifaçılıq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis Mədəniyyət Nazirliyi və digər dövlət və özəl və bələdiyyə qurumları nəzdində fəaliyyət göstərən ansambllarda solo ifaçı, bədii rəhbər, orkestr artisti, orkestr direktoru, ali təhsil müəssisələrində pedaqoq, solist, bədii rəhbər, konsertmeyster, konsertmeyster-illüstrator, filarmoniyalar, konsert təşkilatlarında solist, konsertmeyster, ansambl üzvü, bədii rəhbər, müxtəlif teatrlarda müşayiətçi (konsertmeyster), orkestr artisti, orkestr direktoru, solist, kamera ansamblları, simfonik orkestrlər və s.-də piano partiyaları üzrə ifaçı, solo ifaçı, bədii rəhbər, orkestr artisti, orkestr direktoru və s., konsert, festival və müsabiqələrin təşkilatçısı və meneceri, media və yaradıcı sənayelər üzrə musiqi tərtibatçısı, redaktor işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

***Klassik musiqi alətləri ifaçılığı ixtisaslaşması üzrə:***

**Fortepiano**

| Proqramın təlim nəticələri (PTN) |
| --- |
| PTN 1. Solo ifaçı kimi fortepiano sənətinin müxtəlif dövr və üslublarına dair geniş və mürəkkəb repertuarı yüksək bədii səviyyədə təqdim edəcək. İfa etdiyi əsərlərin musiqi dilini, forma strukturunu, dramaturji quruluşunu və üslub xüsusiyyətlərini dərindən təhlil edərək fərdi interpretasiya nümayiş etdirəcək. Nəzəri biliklərini ifa prosesinə tətbiq edərək musiqi ibarələrinin, onların temp və dinamikasının ifadəli səslənməsinə nail olacaq. Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri bazaya malik olacaq. |
| PTN 2. Konsertmeyster kimi instrumental və vokal ifaçılarla əməkdaşlıq edərək müxtəlif üslub və janrlarda mürəkkəb əsərləri yüksək bədii və texniki bacarıqla müşayiət edəcək. Partnyor ifaçının tələblərinə uyğun şəkildə ritmik, intonasiyalı və dramaturji uyğunluğu təmin edəcək, əsərlərin vokal-instrumental balansını nəzəri analiz əsasında quracaq və konsert fəaliyyətində ifaçı ilə inteqrativ musiqi təfəkkürünü nümayiş etdirəcək. |
| PTN 3. Kamera musiqisi ansambllarında (duet, trio, kvartet və s.) müxtəlif dövrlərə və üslublara aid repertuarla işləyərək musiqi əsərlərinin forma, struktur və üslub təhlilini aparacaq, kollektiv musiqi ifasında liderlik və çevik uyğunlaşma bacarıqları nümayiş etdirəcək. Ansambl üzvləri arasında intonasiya, aqogika və musiqi ibarələrinin uyğunluğunu təmin edərək ifaçılıq iterpretasiyasının nəzəri təhlil nəticələrini bədii şəkildə tətbiq edəcək. |
| PTN 4. Musiqi əsərlərinin ifaçılıq təhlilini — applikatura, dinamika, frazirovka, pedalizasiya və digər texniki-praktik üsulları yüksək səviyyədə şərh edəcək və redaktə zamanı məqsədyönlü şəkildə tətbiq edəcək. Müxtəlif dövrlərə və üslublara aid musiqi əsərlərini həm ilk dəfə, həm də təkrar redaktə edərək peşəkar səviyyədə ifa edəcək, geniş və sistemləşdirilmiş repertuar biliyinə malik olacaq. Musiqi materialını dərindən mənimsəyəcək, interpretasiya zamanı fərdi üslubunu qorumaqla yanaşı, dövrün estetik tələblərinə uyğun ifa etməyi bacaracaq. Müasir musiqi texnologiyalarını seçməyi və tətbiq etməyi bacaracaq. |
| PTN 5. Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Fortepiano ifaçılığı sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| PTN 6. Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını bilərək mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazacaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| PTN 7. Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirəcək. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olaraq tətbiq etməyi |

| |
|---|
| bacaracaq. Musiqi yönümlü layihələrin təşkili və idarə olunmasında konsert menecmenti prinsiplərindən istifadə etməyi bacaracaq. |

**Simli alətlər**

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Simli alətlər üzrə fərdi (solo) ifa sahəsində dərin texniki hazırlıq, yüksək musiqi-estetik düşüncə və bədii təqdimat qabiliyyəti nümayiş etdirəcək. Müxtəlif dövrlərə və üslublara aid mürəkkəb repertuar nümunələrini dramaturji ardıcıllıq və ifa zənginliyi ilə təqdim edəcək. Solo çıxışlarında mürəkkəb texniki üsulları yaradıcılıqla və peşəkar səviyyədə tətbiq edəcək, musiqi materialını emosional, semantik və struktur baxımdan şərh edərək səhnədə konseptual musiqi obrazı yaradacaq. Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri bazaya malik olacaq. |
| PTN 2. Simfonik və kamera orkestri mühitində simli alət ifaçısı kimi kollektiv musiqi proseslərinə bədii və texniki səviyyədə yüksək inteqrasiya nümayiş etdirəcək. Orkestrin intonasiya bütövlüyünü, tembr ahəngdarlığını və ritmik çevikliyini təmin edərək ifa prosesində funksional sabitlik və ifadəli plastika nümayiş etdirəcək. Partitura təhlilinə əsaslanaraq öz partiyasının dramaturji və üslub rolunu dərk edərək orkestr daxilində effektiv və məsuliyyətli iştirakçı kimi çıxış edəcək. |
| PTN 3. Müxtəlif formatlı (duet, trio, kvartet və s.) kamera ansambl kollektivlərində stilistik uyğunluq, musiqi dialoqu və ansambl dinamikasının qurulması üzrə peşəkar bacarıqlara yiyələnəcək. Kollektiv musiqi təfəkkürünə əsaslanaraq musiqi ideyasının ansabl ifadəsinə nail olacaq, interpretasiya zamanı partnyor ifaçılarla bədii sinxronluq və qarşılıqlı çeviklik nümayiş etdirəcək. Həm solo, həm də müşayiətedici qismində çıxış edərək musiqi mətninin tamlığına nail olacaq. |
| PTN 4. Simli alətlər ifaçısı kimi konsertmeyster-illüstrator funksiyasını həyata keçirməyə qadir olacaq və orkestr daxilində estetik rəhbərlik, intonasiya koordinasiyası və interpretativ təşəbbüs bacarıqları nümayiş etdirəcək. Dirijorun göstərişlərini bədii şəkildə gerçək ifaya yönləndirərək orkestrin ritmik strukturunu, dinamik gərginliyini və bədii intonasiyasını yaradacaq. Konsertmeyster kimi orkestr daxilində texniki və psixoloji sabitlik mühitini qorumaqla yanaşı, ifa zamanı partnyorlar arasında koordinasiya və səhnə davranışı baxımından nümunəvi liderlik funksiyasını icra edəcək. Müasir musiqi texnologiyalarını seçməyi və tətbiq etməyi bacaracaq. |
| PTN 5. Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Simli alətlər ifaçılığı sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| PTN 6. Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını bilərək mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazacaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| PTN 7. Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirəcək. “Məhsul sahibi” və “Scrum Master”in vəzifələri və s. haqqında biliklərə malik olaraq tətbiq etməyi bacaracaq. Musiqi yönümlü layihələrin təşkili və idarə olunmasında konsert menecmenti prinsiplərindən istifadə etməyi bacaracaq. |

## Nəfəs və zərb alətləri

| Proqramın təlim nəticələri (PTN) |
| --- |
| PTN 1. Nəfəs və zərb alətləri üzrə solo ifa sahəsində texniki virtuozluğu, musiqi intonasiyasını və ifaçı interpretasiyasını birləşdirərək yüksək səviyyəli peşəkarlığa malik olacaq. Klassik və müasir repertuarın mürəkkəb nümunələrini bədii, üslubi və dramaturji baxımdan əsaslandırılmış konseptual yanaşma ilə təqdim etməyi bacaracaq. Solo ifa zamanı musiqi frazalarının ifadəli modelləşdirilməsi, ifa dinamikasının tənzimlənməsi, nəfəs və artikulyasiya texnikalarının yaradıcı istifadəsi və psixoloji baxımdan auditoriya ilə əlaqənin formalaşdırılmasını bacaracaq. Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri bazaya malik olacaq. |
| PTN 2. Nəfəs və zərb alətləri ifaçısı kimi simfonik və nəfəs alətləri orkestri şəraitində kollektiv musiqi strukturlarına yüksək səviyyədə inteqrasiyasını bacaracaq. Orkestrlə dinamik və ritmik uyğunluq yaratmağı, balans və tembr harmoniyasını qorumağı, eyni zamanda dirijorun göstərişlərini funksional və interpretasiya cəhətdən operativ icra etməyi bacaracaq. Partitura təfəkkürünə əsaslanaraq, öz partiyasının struktur və funksional mahiyyətini qavrayacaq, musiqi dramaturgiyasının inkişafına adekvat reaksiyalar verəcək və orkestr səslənməsinin bütövlüyünü təmin etməyi bacaracaq. |
| PTN 3. Kamera ansambl ifaçısı kimi fərqli tərkibli (duet, trio, kvartet və s.) kollektivlərdə musiqi dialoqunun bərabərhüquqlu iştirakçısı olmağı, musiqi fikrini birgə formalaşdırmağı və ifadəli koordinasiyanı təmin etməyi bacaracaq. Stilistik çeviklik, musiqi jestikası, eşitmə-müşahidə refleksi və çeviklik göstərərək ansambl kontekstində yaradıcı qarşılıqlı münasibət qurmağı bacaracaq. Musiqi liderliyi, intonasiyalı birgə nəfəs və musiqi qərarlarının interaktiv paylaşımı əsasında ansamblın estetik bütövlüyünü qorumağı bacaracaq. |
| PTN 4. Ansambl bütövlüyünün təmin edilməsi istiqamətində mövqe göstərərək illustrator qismində rolunu icra edəcək. İfaçılar arasında psixoloji sabitlik, bədii əməkdaşlıq mühiti və səhnə davranışının ahəngdarlığını təmin etmək baxımından məsuliyyət daşımağı bacaracaq. İfaçılıq bacarıqlarını və texniki üslubları tətbiq etməyi bacaracaq. Müasir musiqi texnologiyalarını seçməyi və tətbiq etməyi bacaracaq. |
| PTN 5. Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Nəfəs və zərb alətləri ifaçılığı sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| PTN 6. Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını bilərək mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazacaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| PTN 7. Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirəcək. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olaraq tətbiq etməyi bacaracaq. Musiqi yönümlü layihələrin təşkili və idarə olunmasında konsert menecmenti prinsiplərindən istifadə etməyi bacaracaq. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etməyi bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yenilələmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihə fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Yaradıcı düşüncə və fəaliyyət fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fərqli musiqi janrlarına və üslublarına aid əsərlərin üslubi xüsusiyyətlərini təhlil edib, onları yaradıcılıqla səhnə təqdimatına uyğun şəkildə ifadə edəcək. Musiqi əsərinin bədii ideyasını və dramaturji xəttini dərk edərək onu tamaşaçıya emosional və inandırıcı şəkildə çatdıracaq. |
| FTN 2 Musiqi ifaçılığının nəzəri-metodoloji əsaslarını dərindən mənimsəyəcək və bu bilikləri müxtəlif dövrlərə aid musiqi əsərlərinin interpretasiyasında peşəkar səviyyədə tətbiq edəcək. |
| FTN 3 İfa zamanı texniki hazırlığı, səs keyfiyyətini və s. yüksək səviyyədə tətbiq etməyi bacaracaq və musiqi əsərinin tələblərinə uyğun adaptasiya edəcək. Emosional ifadəliliyi və musiqi dramaturgiyasını balanslı şəkildə nümayiş etdirib, musiqinin strukturu və dinamikasını nəzərə alaraq çıxışını planlaşdıracaq. |
| FTN 4 Təhlil və müqayisə metodlarından istifadə edərək repertuarını genişləndirib, fərdi yaradıcılıq yanaşmalarını formalaşdıracaq və professional ifaçılıq bacarıqlarını inkişaf etdirəcək. Musiqi üslublarını müqayisəli şəkildə təhlil edib, hər əsərin özünəməxsus xüsusiyyətlərini dərk edəcək və interpretasiyada yaradıcı şəkildə tətbiq edəcək. |
| FTN 5 Repertuarı mərhələli şəkildə mənimsəyib, ifa prosesində əsərlərin mürəkkəbliyi və bədii-üslubi müxtəlifliyi artacaq ki, bu da ifaçının yaradıcılıq inkişafını, bədii və texniki peşəkarlıqla formalaşdıracaq. |
| FTN 6 Həm solo ifaçı, həm nəzəriyyəçi, həm də lektor kimi peşəkarlıq nümayiş etdirib, musiqi biliklərini və təcrübəsini birləşdirəcək və müxtəlif dillərdə elmi və pedaqoji təqdimatlar hazırlamaq bacarığını formalaşdıracaq. |

| Yaradıcı inkişaf fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Musiqi alətində ifa texnikasını inkişaf etdirəcək və müxtəlif üslublarda ifa bacarığını nümayiş etdirə biləcək. |
| FTN 2 Musiqi əsərlərini dinləyib, analiz edəcək və interpretasiya üçün yaradıcı yanaşma tətbiq edəcək. |
| FTN 3 Yaradıcı iş prosesində ifaçılıq problemlərinin həlli yollarını araşdırıb, texniki çətinliklərin öhdəsindən gəlmək üçün sistemli məşq metodlarını və elmi yanaşmaları tətbiq edəcək. Müxtəlif mənbələrdən məlumat toplayaraq, məşq metodlarını zənginləşdirib, elmi yanaşma biliklərini inkişaf etdirəcək və ifaçılığı üzrə professional bacarıqlarını təkmilləşdirəcək. |
| FTN 4 İfa etdiyi əsərlərin tarixi və mədəni kontekstini başa düşəcək və onu ifasında əks etdirəcək. Musiqi əsərinin emosional aspektlərini hiss edəcək və ifasında təsirli şəkildə ifadə edə biləcək. |
| FTN 5 Musiqi alətlər ifaçılığının müasir inkişaf istiqamətlərini (XX-XXI), nəzəri-metodoloji əsaslarını dərindən mənimsəyəcək və fərdi yaradıcılıq işində peşəkar şəkildə tətbiq edəcək. |
| FTN 6 Səhnədə və auditoriya qarşısında ifasını inamla təqdim edə biləcək. |

| Yaradıcılıq işi fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Musiqi alətində texniki bacarıqlar nümayiş etdirərək, müxtəlif musiqi üsublarını peşəkar səviyyədə ifa edə biləcək və ifa zamanı bədii ifadə vasitələrini məqsədəuyğun şəkildə tətbiq edəcək. |
| FTN 2 Həm texniki, həm də yaradıcılıq sahəsində əldə etdiyi bilik və bacarıqları özündə sintez edərək professional səviyyədə öz fərdi ifasında yüksək yaradıcılıq potensialını nümayiş etdirəcək. |
| FTN 3 İfa etdiyi musiqi əsərlərinin strukturunu, dinamikasını və s. dərindən analiz edib, bu bilikləri interpretasiyasına tətbiq etməklə ifasında yüksək yaradıcılıq səviyyəsi nümayiş etdirəcək. |
| FTN 4 Yaradıcı işin nəticələrini pedaqoji fəaliyyət, elmi-tədqiqat işi və ifaçılıq praktikasında əlaqələndirib, musiqi alətləri üzrə fərdi yaradıcılıq üslubunu inkişaf etdirərək peşəkar mühitdə tətbiq edəcək. |
| FTN 5 Musiqi əsərlərinin emosional və ekspressiv aspektlərini hiss edib, ifasında dinləyiciyə güclü emosional təsir göstərən ifadə vasitələrini istifadə edəcək və yaradıcılıq yanaşmasını inkişaf edəcək. |
| FTN 6 Repertuarı mərhələli şəkildə mənimsəyib, ifa prosesində əsərlərin mürəkkəbliyi və bədii-üslubi müxtəlifliyi artıb, bu da ifaçının yaradıcılıq inkişafını, bədii və texniki peşəkarlığını formalaşdıracaq. |

| Müşayiət sənəti fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Solo ifaçı ilə ansambl sintezini qurub, ifa zamanı intonasiya, temp və dinamika balansını yüksək peşəkarlıqla təmin edəcək. |
| FTN 2 Hazırlıqsız notları üzdən oxuma bacarığını yüksək səviyyədə mənimsəyib, konsertmeyster ifasında çevik və dəqiq müşayiət edə bilmək üçün lazım olan texniki və nəzəri bilikləri peşəkar səviyyədə tətbiq edəcək. |
| FTN 3 İnstrumental və vokal janrında konsertmeysterlik bacarıqlarını nümayiş etdirəcək və peşəkar müşayiəti təmin edəcək. |
| FTN 4 Konsertmeyster fəaliyyətində yaranan texniki və bədii çətinliklərin həllinə analitik və yaradıcı yanaşma nümayiş etdirəcək. |
| FTN 5 Müasir elmi-tədqiqat metodlarından, müasir bəstəkarların əsərlərindən (XX-XXI) istifadə etməklə konsertmeyster sənətinin tarixi inkişaf mərhələlərini və müasir tendensiyalarını dəyərləndirəcək. |
| FTN 6 Səhnə mədəniyyətini, musiqi ünsiyyətini və kollektiv ifa etikası prinsiplərini peşəkar səviyyədə nümayiş etdirib, konsertmeyster fəaliyyətini pedaqoji və ifaçılıq təcrübəsi ilə əlaqələndirəcək. |

| Piano müşayiəti ustalığı fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Səhnə mədəniyyətini, musiqi ünsiyyətini və kollektiv ifa etikası prinsiplərini peşəkar səviyyədə nümayiş etdirib, konsertmeyster fəaliyyətini pedaqoji və ifaçılıq təcrübəsi ilə əlaqələndəcək. |
| FTN 2 Müşayiət etdiyi musiqi materialına fərdi yaradıcılıq yanaşmasını tətbiq edib, piano müşayiətində yüksək yaradıcılıq potensialını nümayiş etdirəcək və peşəkar səviyyədə müşayiət bacarıqlarını həyata keçirəcək. |
| FTN 3 Musiqi əsərlərinin tarixi və mədəni kontekstini nəzərə alaraq müşayiət edərkən ifasının emosional dərinliyini artıracaq. |
| FTN 4 Konsertmeyster fəaliyyətində yaranan texniki və bədii çətinliklərin həllinə analitik və yaradıcı yanaşma nümayiş etdirəcək. |
| FTN 5 Konsertmeyster ifasında çevik və dəqiq müşayiət edə bilmək üçün lazım olan texniki və nəzəri bilikləri peşəkar səviyyədə tətbiq edəcək. |
| FTN 6 Səhnə mədəniyyətini, musiqi ünsiyyətini və kollektiv ifa etikası prinsiplərini peşəkar səviyyədə nümayiş etdirib, konsertmeyster fəaliyyətini pedaqoji və ifaçılıq təcrübəsi ilə əlaqələndirəcək. |

| Kamera musiqi ifaçılığı fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Kamera musiqisinin ifaçılıq prinsiplərini və nəzəri əsaslarını dərindən mənimsəyib, müxtəlif janr və üslublarda peşəkar ansambl ifası həyata keçirib, ansambl ifasının tarixi inkişaf mərhələlərini, üslubi xüsusiyyətlərini və müasir istiqamətlərini professional səviyyədə öyrənəcək. |
| FTN 2 Ansambl ifaçısı seçilmiş əsərləri peşəkar səviyyədə birlikdə ifa etmə bacarığını nümayiş etdirəcək. |
| FTN 3 Müasir elmi-tədqiqat metodlarından, müasir bəstəkarların əsərlərindən (XX-XXI) istifadə etməklə kamera ansamblı sənətinin tarixi inkişaf mərhələlərini, müasir tendensiyalarını öyrənəcək və ifada tətbiq edəcək. |
| FTN 4 Ansambl ifasında texniki və bədii çətinliklərin öhdəsindən gəlmək üçün analitik yanaşma göstərib, kollektiv ifa prosesində həm fərdi, həm də qrup məsuliyyətini üzərinə götürməyi bacaracaq. |
| FTN 5 Kamera musiqisinin tarixi inkişaf mərhələlərini və müasir istiqamətlərini elmi-tədqiqat baxımından öyrənəcək və nəticələrini ifaçılıq praktikası ilə əlaqələndirəcək. Kamera ansamblında ifa zamanı səhnə davranışı, kollektiv ifa etikası və tamaşaçı ilə musiqi ünsiyyətini professional səviyyədə nümayiş etdirəcək. |
| FTN 6 Kamera musiqisinin pedaqoji və elmi-tədqiqat aspektlərini mənimsəyib, əldə etdiyi nəzəri bilikləri və praktiki bacarıqları tədris prosesində və konsert fəaliyyətində səmərəli şəkildə tətbiq edəcək. |

| Kamera ansambl ifaçılığı fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Müxtəlif üslublarda ansambl müşayiət bacarıqlarını inkişaf etdirib, klassik, romantik və müasir repertuar əsərlərini peşəkar səviyyədə ifa edəcək və ansamblın musiqi ifadəsini zənginləşdirəcək. |
| FTN 2 Ansambl ifasında texniki və bədii çətinliklərin öhdəsindən gəlmək üçün analitik yanaşma göstərib, kollektiv ifa prosesində həm fərdi, həm də qrup məsuliyyətini üzərinə götürməyi bacaracaq. |
| FTN 3 Müasir elmi-tədqiqat metodlarından, müasir bəstəkarların əsərlərindən (XX-XXI) istifadə etməklə kamera ansamblı sənətinin tarixi inkişaf mərhələlərini, müasir tendensiyalarını öyrənəcək və ifada tətbiq edəcək. |
| FTN 4 İfasında texniki dəqiqlik və ritmik sabitliyi qoruyub, tempi və dinamik balansı idarə edib, ansamblın səhnə mədəniyyətini və professional davranışını nümayiş etdirəcək. |
| FTN 5 Kamera musiqisinin ifaçılıq prinsiplərini və nəzəri əsaslarını dərindən mənimsəyib, müxtəlif janr və üslublarda peşəkar ansambl ifası həyata keçirib, ansambl ifasının tarixi inkişaf mərhələlərini, üslubi xüsusiyyətlərini və müasir istiqamətlərini professional səviyyədə öyrənəcək. |
| FTN 6 Ansambl repertuarında yaradıcılıq innovativ interpretasiya və yaradıcılıq elementləri tətbiq edib, birgə ifanın ekspressivliyini artıracaq və auditoriya qarşısında professional səviyyədə təqdim edəcək. |

| İnstrumental ifaçılığın müasir istiqamətləri (musiqi alətləri üzrə) fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Müasir instrumental ifaçılığın (XX-XXI) nəzəri və metodoloji əsaslarını dərindən mənimsəyəcək və bu bilikləri müxtəlif musiqi janrlarında peşəkar səviyyədə tətbiq edəcək. |
| FTN 2 Müasir ifaçılıq texnikaları (XX-XXI), yeni üslubi yanaşmalar və interpretasiya metodlarını öyrənəcək, onları praktik ifa zamanı yaradıcı şəkildə tətbiq edəcək. |
| FTN 3 Ənənəvi və müasir ifaçılıq üsullarını musiqi əsərlərində müqayisəli təhlil edib, onların fərqli xüsusiyyətlərini dərk edərək ifaçılıq praktikası üçün məqsədəuyğun yanaşma formalaşdıracaq. |
| FTN 4 Fərqli müasir musiqi dilinin (XX-XXI) xüsusiyyətlərini instrumental ifa sahəsində tətbiq edəcək və fərdi ifaçılıq üslubunu zənginləşdirəcək. |
| FTN 5 Müasir ifaçılıq məktəblərinin tarixi və aktual inkişaf tendensiyalarını öyrənəcək, əldə etdiyi bilikləri ifa və pedaqoji praktikada səmərəli şəkildə tətbiq edəcək. |
| FTN 6 İnstrumental ifaçılığın müasir inkişaf istiqamətlərini öyrənəcək və yeni musiqi proseslərini anlama və tətbiq etmə bacarığını inkişaf etdirib, əldə etdiyi bilikləri gələcək fəaliyyətində tətbiq etməyi öyrənəcək. |

| İxtisas üzrə ifaçılıq fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Seçilmiş ixtisas alətində yüksək səviyyəli texniki və ifadə imkanlarını nümayiş etdirib, mürəkkəb janrlarda və üslublarda əsərləri ifa edə biləcək. |
| FTN 2 Müxtəlif dövrlərin və üslubların musiqi repertuarını mənimsəyib, əsərlərin üslubi və bədii xüsusiyyətlərini təhlil edəcək və ifadą tətbiq edəcək. |
| FTN 3 Emosional ifadəliliyi və musiqi dramaturgiyasını balanslı şəkildə nümayiş etdirib, musiqinin strukturu və dinamikasını nəzərə alaraq çıxışını planlaşdıracaq. İfa zamanı texniki hazırlığı, səs keyfiyyətini, artikulyasiyanı yüksək səviyyədə tətbiq etməyi bacaracaq və musiqi əsərinin tələblərinə uyğun adaptasiya edəcək. |
| FTN 4 Musiqi üslublarını müqayisəli şəkildə təhlil edib, hər əsərin özünəməxsus xüsusiyyətlərini dərk edəcək və interpretasiyada yaradıcı şəkildə tətbiq edəcək. Təhlil və müqayisə metodlarından istifadə edərək repertuarını genişləndirib, fərdi yaradıcılıq yanaşmalarını formalaşdıracaq və professional ifaçılıq bacarıqlarını inkişaf etdirəcək. |
| FTN 5 Yeni repertuarı müstəqil öyrənərək, texniki çətinliklərin həllində yaradıcı yollar taparaq, müasir musiqi tendensiyalarını izləyərək peşəkar inkişafını davam etdirəcək. |
| FTN 6 Konsert və çıxışlarda peşəkar səhnə davranışı nümayiş etdirərək, dinləyicilərlə emosional ünsiyyət qura biləcək və bədii materialı yüksək səviyyədə təqdim edəcək. |

| Alət üzrə solo ifa fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fərdi alətdə yüksək texniki imkanlara yiyələnib, mürəkkəb musiqi fakturalarını ifa etməyi bacaracaq və bədii-emosional ifadəliliyi təmin edəcək. |
| FTN 2 Müxtəlif dövrlərin, üslubların və janrların solo əsərlərini öyrənib, onların üslubi xüsusiyyətlərini təhlil edəcək və yaradıcı interpretasiya ilə təqdim edəcək. |
| FTN 3 Yeni musiqi əsərlərini müstəqil şəkildə öyrənib, texniki və ifa problemlərinin həllində yaradıcı yanaşma tətbiq edəcək. |
| FTN 4 İfaçılıq prosesini elmi baxımdan təhlil edib, musiqi əsərlərinin məzmununu nəzəri biliklərlə əlaqələndirəcək və fərdi ifasında tətbiq edəcək. |
| FTN 5 Konsert və imtahan çıxışlarında peşəkar səhnə davranışını nümayiş etdirib, musiqi materialını yüksək səviyyədə təqdim edəcək və auditoriya ilə emosional ünsiyyət quracaq. |
| FTN 6 Fərdi ifada improvizasiya elementlərini istifadə edib, yeni ifa üsullarını mənimsəyəcək və peşəkarlığını daim inkişaf etdirəcək. |

| İxtisas alətində ifa fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Seçilmiş klassik musiqi alətində yüksək səviyyəli texniki bacarıqlara yiyələnib, ifa zamanı dəqiqlik, sabitlik və peşəkar ifa mədəniyyəti nümayiş etdirəcək. |

| |
|---|
| FTN 2 İfa etdiyi musiqi əsərlərinin melodik, harmonik, ritmik strukturunu dərin analitiki yanaşma ilə təhlil edəcək və öz ifasında tətbiq edəcək. |
| FTN 3 Konsert və imtahan çıxışlarında peşəkar səhnə davranışını nümayiş etdirib, musiqi materialını yüksək səviyyədə təqdim edəcək və auditoriya ilə emosional ünsiyyət quracaq. |
| FTN 4 Emosional ifadəliliyi və musiqi dramaturgiyasını balanslı şəkildə nümayiş etdirib, musiqinin strukturu və dinamikasını nəzərə alaraq çıxışını planlaşdıracaq. |
| FTN 5 Yeni repertuarı müstəqil öyrənərək, texniki çətinliklərin həllində yaradıcı yollar taparaq, müasir musiqi tendensiyalarını izləyərək peşəkar inkişafını davam etdəcək. |
| FTN 6 Səhnə çıxışında professional davranış nümayiş etdirib, səhnə həyəcanını idarə edib, yüksək səviyyəli səhnə mədəniyyətini qoruyacaq. |

| **Fərdi alətdə ifa fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İfa etdiyi əsərlərin emosional dramaturgiyasını müəyyənləşdirib, musiqi frazalarının məntiqini qurub, kulminasiya nöqtələrini ifadəli şəkildə təqdim edəcək və bədii bütövlüyü qoruyacaq. |
| FTN 2 İfa zamanı akustik mühitə uyğunlaşıb, səhnə, zal və alətin xüsusiyyətlərini nəzərə alaraq səs balansını və ifadə imkanlarını genişləndirəcək. |
| FTN 3 Konsert və imtahan çıxışlarında peşəkar səhnə davranışını nümayiş etdirib, musiqi materialını yüksək səviyyədə təqdim edəcək və auditoriya ilə emosional ünsiyyət quracaq. |
| FTN 4 İfaçılıq prosesini elmi baxımdan təhlil edib, musiqi əsərlərinin məzmununu nəzəri biliklərlə əlaqələndirəcək və fərdi ifasında tətbiq edəcək. |
| FTN 5 Müxtəlif dövrlərin, üslubların və janrların solo əsərlərini öyrənib, onların üslubi xüsusiyyətlərini təhlil edəcək və yaradıcı interpretasiya ilə təqdim edəcək. |
| FTN 6 İfaçılıq prosesini elmi baxımdan təhlil edib, musiqi əsərlərinin məzmununu nəzəri biliklərlə əlaqələndirəcək və fərdi ifasında tətbiq edəcək. |

| **Alət üzrə ifaçılıq fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Musiqi əsərlərini dərin analitik düşüncə ilə təhlil edəcək və bu təhlili öz ifasında tətbiq edəcək. |
| FTN 2 Seçilmiş klassik musiqi alətində yüksək texniki ustalıq nümayiş etdririb, mürəkkəb musiqi əsərlərini dəqiqlik, ifadəlilik və peşəkar musiqi aparatına uyğun olaraq ifa edəcək. |
| FTN 3 Səhnə çıxışında professional davranış nümayiş etdirib, səhnə həyəcanını idarə edib, yüksək səviyyəli səhnə mədəniyyətini qoruyacaq. |
| FTN 4 Müxtəlif dövrlərin üslub xüsusiyyətlərini mənimsəyəcək və bu üslubları öz ifasında tətbiq edəcək. |
| FTN 5 Geniş və müxtəlif repertuar qurub, texniki və emosional baxımdan mürəkkəb əsərləri ifa edəcək və repertuar seçimində yaradıcı və professional yanaşma nümayiş etdirəcək. |

| |
|---|
| FTN 6 Səhnə performansı zamanı emosional sabitlik, konsentrasiya və səhnə davranışı nümayiş etdirib, tamaşaçı ilə bədii əlaqə yaradacaq və bu ifa prosesini idarə edəcək. |

| İxtisas hazırlığı fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 İfaçılıq prosesini elmi baxımdan təhlil edib, musiqi əsərlərinin məzmununu nəzəri biliklərlə əlaqələndirəcək və fərdi ifasında tətbiq edəcək. |
| FTN 2 Müxtəlif dövrlərə aid repertuarla işləməyi bacarıb, hər dövrün ifa üslubuna uyğun bədii yanaşma formalaşdıracaq. |
| FTN 3 Musiqi aləti üzrə texniki imkanlardan peşəkar şəkildə istifadə edib, ifa aparatını səmərəli və sağlam formada idarə edəcək. |
| FTN 4 Səhnə performansı zamanı emosional sabitlik, konsentrasiya və səhnə davranışı nümayiş etdirib, tamaşaçı ilə bədii əlaqə yaradacaq və bu ifa prosesini idarə edəcək. |
| FTN 5 Fərdi ifa simasını formalaşdırıb, musiqi dünyagörüşü, bədii zövq, üslub seçimi baxımdan özünəməxsus ifa üslubuna malik olacaq. |
| FTN 6 Konsert, müsabiqə, imtahan kimi müxtəlif səhnə şəraitlərində peşəkar səviyyədə çıxış edib, səhnə mədəniyyəti, psixoloji dayanıqlıq, auditoriya ilə ünsiyyət bacarıqlarını nümayiş etdirəcək. |

| Orkestr ifaçılığı fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Orkestr repertuarının müxtəlif dövrlərə və üslublara aid nümunələrini təhlil edib, hər bir əsəri bədii-üslubi xüsusiyyətlərini düzgün müəyyənləşdirərək ifasında yaradıcılıqla əks etdirəcək. |
| FTN 2 Orkestrdə ifa zamanı ansambl düşüncəsi, kollektiv məsuliyyəti və musiqiçi həmrəyliyi nümayiş etdirib, ifanın emosional bütövlüyünə və bədii dəyərinə töhfə verəcək. |
| FTN 3 İfa zamanı ansambl üzvləri ilə qarşılıqlı musiqi ünsiyyətini inkişaf etdirəcək və ümumi ifanın bədii bütövlüyünə peşəkar töhfə verəcək. |
| FTN 4 Fərqli orkestr tərkiblərində (simfonik, kamera,xalq çalğı, nəfəs və s.) iştirak edərək müxtəlif janr və üslublara uyğun ifa vərdişləri qazanacaq və repertuarın interpretasiyasında peşəkar yanaşma sərgiləyəcək. |
| FTN 5 Orkestr təcrübəsini pedaqoji və yaradıcı fəaliyyətə inteqrasiya edib, konsert proqramlarının hazırlanmasında və səhnə təqdimatında yüksək səviyyəli ifaçılıq, sənətkarlıq və peşə etikası nümayiş etdirəcək. |

| Orkestr məşğələləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Orkestrdə ifa zamanı kollektiv davranışı gücləndirib, ansambl üzvləri ilə qarşılıqlı musiqi ünsiyyətini inkişaf etdirəcək və ümumi ifanın bədii bütövlüyünə peşəkar töhfə verəcək. |

| |
|---|
| FTN 2 Dirijorla peşəkar səviyyədə qarşılıqlı fəaliyyət qurub, onun jestlərini, temp dəyişikliklərini, dinamika göstərişlərini və frazalanma tələblərini dəqiq oxuyaraq operativ şəkildə tətbiq edəcək. |
| FTN 3 Kollektiv intizam, ritmik sabitlik, səs balansına yüksək diqqət göstərib, ifa zamanı digər alət qrupları ilə koordinasiyalı şəkildə işləyəcək. |
| FTN 4 Orkestr təcrübəsini pedaqoji və yaradıcı fəaliyyətə inteqrasiya edib, konsert proqramlarının hazırlanmasında və səhnə təqdimatında yüksək səviyyəli ifaçılıq, sənətkarlıq və peşə etikası nümayiş etdirəcək. |
| FTN 5 Orkestr repertuarını (klassik, romantik, müasir, milli və s.) üslub baxımından düzgün ifa edib, dövrün xarakterinə uyğun interpretasiya və bədii ifadəlilik nümayiş etdirəcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

Əlavə 2

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 |
| Yaradıcı düşüncə və fəaliyyət (fortepiano) | x | x | x | x | | | |
| Yaradıcı inkişaf (fortepiano) | x | x | x | x | | | |
| Yaradıcılıq işi (fortepiano) | x | x | x | x | | | |
| Yaradıcı düşüncə və fəaliyyət (simli alətlər) | x | x | | x | | | |
| Yaradıcı inkişaf (simli alətlər) | x | x | | x | | | |
| Yaradıcılıq işi (simli alətlər) | x | x | | x | | | |
| Yaradıcı düşüncə və fəaliyyət (nəfəsli alətlər) | x | x | | | | | |
| Yaradıcı inkişaf (nəfəsli alətlər) | x | x | | | | | |
| Yaradıcılıq işi (nəfəsli alətlər) | x | x | | | | | |
| Yaradıcı düşüncə və fəaliyyət (zərb aləti) | x | x | | | x | | |
| Yaradıcı inkişaf (zərb aləti) | x | x | | | x | | |
| Yaradıcılıq işi (zərb aləti) | x | x | | | x | | |
| İxtisas üzrə ifaçılıq (fortepiano) | x | x | x | x | | | |
| Alət üzrə solo ifa (fortepiano) | x | x | x | x | | | |
| İxtisas alətində ifa (fortepiano) | x | x | x | x | | | |
| Fərdi alətdə ifa (fortepiano) | x | x | x | x | | | |
| Alət üzrə ifaçılıq (fortepiano) | x | x | x | x | | | |
| İxtisas hazırlığı (fortepiano) | x | x | x | x | | | |
| İxtisas üzrə ifaçılıq (simli alətlər) | x | x | | x | | | |
| Alət üzrə solo ifa (simli alətlər) | x | x | | x | | | |
| İxtisas alətində ifa (simli alətlər) | x | x | | x | | | |
| Fərdi alətdə ifa (simli alətlər) | x | x | | x | | | |
| Alət üzrə ifaçılıq (simli alətlər) | x | x | | x | | | |
| İxtisas hazırlığı (simli alətlər) | x | x | | x | | | |
| İxtisas üzrə ifaçılıq (zərb və nəfəsli alətlər) | x | x | | | | | |
| Alət üzrə solo ifa (zərb və nəfəsli alətlər) | x | x | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| İxtisas alətində ifa (zərb və nəfəsli alətlər) | x | x | | | | | |
| Fərdi alətdə ifa (zərb və nəfəsli alətlər) | x | x | | | | | |
| Alət üzrə ifaçılıq (zərb və nəfəsli alətlər) | x | x | | | | | |
| İxtisas hazırlığı (zərb və nəfəsli alətlər) | x | x | | | | | |
| Kamera musiqi ifaçılığı | | | x | x | | | |
| Kamera ansambl ifaçılığı | | | x | x | | | |
| Müşayiət sənəti | | x | | x | | | |
| Piano müşayiəti ustalığı | | x | | x | | | |
| İnstrumental ifaçılığın müasir istiqamətləri (musiqi alətləri üzrə) | x | | | | x | | |
| Orkestr ifaçılığı | | x | | | x | | |
| Orkestr məşğələləri | | x | | | x | | |
| Ali məktəb pedaqogikası və psixologiya | | | | | x | | |
| Akademik yazı və etika | | | | | | x | |
| Layihələrin idarə olunması | | | | | | | x |
| Elmi-pedaqoji təcrübə | | | | | x | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________________ **Namiq Qafarov**

**ADMİU-nun İnstrumental ifaçılıq kafedrasının müdiri:** ____________________ **Adilə Yusifova**

**ADMİU-nun Musiqi sənəti fakültəsinin dekanı:** ____________________ **İradə Xəlilova**